RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 97 (8976) ÇƏRŞƏNBƏ, 11 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## ƏBƏDİ EHTİRAM



Mayın 10-da - xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də Ulu Öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoydular.

Sonra dövlət başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.







## “Andıma sadiq oldum, bu gün Qarabağ azaddır”



Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində səfərdə olublar.

Dövlət başçısına və birinci xanıma Şuşadakı inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şirin su hamamında, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, Mehmandarovlar malikanə kompleksində aparılacaq bərpa işləri ilə tanış olublar.

Dövlət başçısı və birinci xanım "Shusha Boutique Hotel"də və Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar.

Sonra Prezident İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər.

Dövlət başçısı və birinci xanım Füzuli şəhərində Peşə Liseyinin təməlini qoyub, yeni yaradılacaq mərkəzi parkın ərazisində ağac əkib, rayon mərkəzi xəstəxanasının təməlqoyma mərasimində iştirak ediblər.

→ 2-4




## *Mehriban ƏLİYEVA:* "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır"

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

## Ümummilli ziyarətgah



Azərbaycanda 10 may deyəndə istər-istəməz ilk yada düşən ömrünü xalqa həsr etmiş, müasir Azərbaycan dövlətinin xilaskarı və qurucusu, xalqımızın böyük oğlu əbədiyaşar lider Heydər Əliyevin doğum gününü xatırlayırıq.

Tarixdə yeni era yaratmaq çox az, yalnız nadir şəxsiyyətlərə nəsib olur. Məhz həmin şəxsiyyətlər öz qüdrətli dühaları ilə tarixi inkişafa və proseslərə böyük təkan verir, ona öz dönməz iradəsini diktə edib tükənməz enerjisi və aydın zəkası ilə tarixin yaradıcılarına çevrilirlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev məhz belə tarix yaradan, tarix yazan böyük şəxsiyyətlərdəndir.

Respublikamızın ən ucqar kəndlərindən, rayonlarından ictimaiyyət nümayəndəri, gənclər, ziyalılar, dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız Ümummilli Liderin müqqəddəs məzarını ziyarət edərək sevgilərini nümayiş etdirirlər. Kədər, göz yaşı ilə deyil, sevgi hissi, ömrünü xalqına bağışlamış Ulu Öndəri minnətdarlıq duyğusu ilə yad edirlər. Ziyarətçilərdən - Rusiya Federasiyasının Arxangelsk vilayəti Azərbaycan diasporu regional ictimai təşkilatı idarə heyətinin sədri Tərlan Qasımov bizimlə söhbətində dedi:

- Mən Rusiya Federasiyasında yaşasam da, hər il ailəmlə birlikdə Ulu Öndərin doğum günü məzarını ziyarət etməyə gəlirəm.

→ 5



## “Xarıbülbül” Şuşada yenidən dünyanı başına toplayır

→ 8

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində olublar

## Füzuli şəhərində Peşə Liseyinin təməli qoyulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verdi.

Bildirildi ki, Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq.

Dövlət başçısı Füzuli şəhər Peşə Liseyinin təməlini qoydu.

Qeyd edək ki, XXI əsrin çağırışlarına və yeni trendlərinə müvafiq olaraq ölkəmizdə təhsil sahəsində islahatlar çərçivəsində peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Lisey ildə 800-ə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq.

Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu. İki il əvvəl Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktların qəbul olunması, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması da Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

## Ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır





İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlət başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verdi. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, digər quruculuq işləri kimi, ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. İşğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası məqsədilə ağacəkmə tədbirləri davam etdirilir. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Füzuli rayonunu da əhatə edir. Füzulidə yeni yaradılacaq park kompleksi də şəhərdə ekoloji tarazlığın qorunması işinə mühüm töhfə verəcək.

## İşğaldan azad edilmiş ərazilərdə səhiyyə sistemi təkmilləşdirilir





Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu tibb müəssisəsində əsasən üç bölmənin - inzibati, stasionar və ambulator xidmət bölmələrinin yaradılması nəzərdə tutulub. Stasionar xidmət bölməsindəki qəbul mərkəzində 40 çarpayılıq terapiya, o cümlədən kardiologiya və nevrologiya şöbələri fəaliyyət göstərəcək. Xəstəxanada həmçinin cərrahiyyə, travmatologiya-ortopediya, LOR, əməliyyat bloku, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya və hemodializ şöbələri yaradılacaq. Ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu.

Məlumat verildi ki, müalicə ocağı maqnit rezonans tomoqrafiya və digər ən müasir tibbi avadanlıqla təmin olunacaq. Xəstəxana binasının zirzəmisi zəruri hallarda sığınacaq və hərbi hospital təyinatına malik strukturda inşa ediləcək.

Qeyd edək ki, gələcəkdə Füzuli rayonunda digər səhiyyə müəssisələrinin də tikintisi nəzərdə tutulub. Belə ki, rayonda Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası (hər növbədə 4 briqada olmaqla), Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası da inşa ediləcək.

Bu ilin fevralında Ağdamda, indi isə Füzuli rayonunda ən müasir tələblərə cavab verən səhiyyə ocaqlarının inşası işğaldan azad olunan ərazilərin dirçəldilməsi istiqamətində həyata keçirilən kompleks abadlıq-quruculuq işlərinin mühüm tərkib hissələrindən biridir. İşğaldan azad edilən ərazilərdə tibbi xidmətlərin təşkili işləri sürətlə həyata keçirilir. Fizuli Rayon Mərkəzi Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində mühüm infrastruktur layihələrindən biridir. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Son illərdə ölkəmizdə 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu sahədə aparılan ardıcıl islahatlar səhiyyə sisteminin yeni, müasir mərhələyə qədəm qoymasına hərtərəfli zəmin yaradıb. Səhiyyə sahəsinin inkişafı ilə bağlı icra olunan layihələr respublikanın bütün bölgələrini əhatə edir. Yeni tibb müəssisələrinin ən son texnoloji yeniliklərə əsaslanan avadanlıq və qurğularla təchiz olunması ölkəmizin ümumi inkişafının göstəricisidir. İstər infrastruktur, istər tibbi sığorta sisteminin tətbiqi, istərsə də digər inzibati tədbirlər həm də sosial siyasətdə mühüm yer tutan səhiyyə islahatlarının uğurla və məqsədyönlü şəkildə davam etdirildiyini təsdiqləyir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı inzibati binada və Şirin su hamamında aparılan bərpa işləri ilə tanış olublar

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində də səfərdə olublar.







AZƏRTAC xəbər verir ki, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına və birinci xanıma şəhərdəki inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verdi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı Şirin su hamamında aparılan bərpa işləri ilə tanış oldular.

Prezidentin köməkçisi Anar Ələkbərov məlumat verdi ki, tarixi Şirin su hamamında bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Milli memarlıq ənənələrini özündə əks etdirən hamamın birmərtəbəli binası plan kompozisiyasına görə düzbucaqlı formadadır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri qədim mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Qədim Şuşanın 17 məhəlləsinin hər birində hamam, məscid və bulaq olub. Şəhərin Mərdinli məhəlləsində yerləşən Şirin su hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunub. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi içməli şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam Şirin su hamamı adlandırılıb. 1986-cı ildə aparılan ölçü işlərindən sonra memar Ədalət Məmmədov tərəfindən hazırlanan layihə üzrə abidədə əsaslı bərpa-təmir işləri görülüb. Şirin su hamamı 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edilənədək öz təyinatı üzrə fəaliyyət göstərib. İşğal dövründə digər bütün abidələrimiz kimi bu qədim hamam da ermənilər tərəfindən dağıdılıb.

## Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri davam edir

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşada Mehmandarovların malikanə kompleksində də Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri davam edir.

İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb, bunun əsasında bərpa prosesi icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılıb, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilib. Hazırda digər bərpa işləri aparılır.

Kompleksin həyətində bulağın bərpası yekunlaşıb, landşaft işlərinə hazırlıq görülür.



## Heydər Əliyev Fondu məşhur tarzən Sadıqcanın Şuşadakı evini bərpa edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış oldular.





AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Sadıqcanın evində də bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirəcək. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunub.

Qeyd edək ki, 1846-cı ildə Şuşada anadan olan Sadıqcan Azərbaycanın tanınmış tarzənlərindən biridir. O, tarı təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcan ilk dəfə tarı sinədə ifa etməyə başlayıb. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib. Sadıqcan, eyni zamanda, istedadlı bəstəkar idi. O, "Orta Segah" və "Bayatı-Şiraz" muğamlarına bir neçə rəng bəstələyib.

* * *

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşada yeni inşa olunacaq məscid kompleksinin layihəsi barədə də məlumat verildi. Bildirildi ki, məscidin layihəsi üzrə işlər başa çatıb və inşaat işlərinə başlanılıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşaya səfər çərçivəsində "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olublar.





AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma burada aparılan təmir-bərpa işləri haqqında məlumat verdi.

Qeyd edildi ki, Şuşanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq buna uyğun infrastruktur yaradılır. Butik hotel şəhərin Köçərli küçəsindəki binada yerləşəcək. Müasir səviyyəyə çatdırılacaq hoteldə Şuşa şəhərinə səfər edəcək ziyarətçilərin rahatlığı üçün şərait yaradılacaq. Burada 13 otaq və kiçik restoran qonaqların ixtiyarına veriləcək.

Xatırladaq ki, işğaldan azad olunan kimi dərhal bərpa və yenidənqurma işlərinin aparılmasına başlanılan Şuşada qısa zamanda böyük quruculuq işləri görülüb. Mədəniyyət paytaxtımızda çoxsaylı tədbirlərin keçirilməsi, bu şəhərin keçmişdə olduğu kimi, indi də turistlərin istirahət üçün seçdikləri sevimli məkanlardan biri olacağı nəzərə alınaraq burada lazımi infrastrukturun yaradılmasına, o cümlədən hotellərin inşasına xüsusi diqqət göstərilir. Onu da bildirək ki, ötən ilin mayında Şuşada "Xarıbülbül" hotelinin, həmin hotelin nəzdindəki 48 mənzilli korpus və kotteclərin, avqustda isə "Qarabağ" hotelinin yenidənqurmadan sonra açılışı olub.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar

## Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar.





AZƏRTAC xəbər verir ki, təhsil naziri Emin Əmrullayev dövlət başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Fəaliyyətə 1881-ci il sentyabrın 20-də başlayan Şuşa Realnı Məktəbi həm tədrisi, təhsil ənənələri, həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə bütün Cənubi Qafqazda seçilən təhsil ocaqlarından biri idi. Əvvəlcə 6 sinifdən ibarət olan və 159 şagirdi qəbul edən məktəbin Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusuf bəy Məlikhaqnəzərov kimi pedaqoqları, İsmayıl bəy Səfibəyov, Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu, Soltan bəy Vəlibəyov, Xan Şuşinski kimi parlaq yetirmələri olub.

Qeyd edək ki, xalqın maariflənməsi, elmə yiyələnməsi işində müstəsna xidmətləri olan Şuşa Realnı Məktəbinin binasında sonradan bir sıra digər təhsil müəssisələri fəaliyyət göstərib. Şuşa şəhəri 1992-ci ilin mayında işğal edildikdən sonra bir çox tarixi yerlərlə bərabər bu məktəb də erməni vandalları tərəfindən yandırılaraq xarabazara çevrilib.

## "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı olub

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.





AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına idarəetmə mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Şuşada Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Ənənəvi üçpilləli 35/10-6/0,4kV-luq paylayıcı elektrik şəbəkələrinin yerinə Şuşada qurulan yeni dairəvi elektrik təchizat sxemi müasir dəringirişli ikipilləli 35/0,4kV-luq şəbəkələrlə əvəz edilib.

Yeni şəbəkənin istifadəyə verilməsi ilə ənənəvi 35/10 kV-luq yarımstansiyaların və 10 kV-luq elektrik verilişi xətlərinin tikintisi, saxlanma və istismar xərcləri aradan qaldırılacaq, texnoloji itkilər minimuma endirilməklə, ətraf mühit və canlı orqanizmlərə elektromaqnit sahə şüalanmasının mənfi təsiri azaldılacaq, xidmət heyəti və texniki nəqliyyat vasitələri ixtisar ediləcək, xidmətin keyfiyyəti yaxşılaşdırılacaq. Bununla yanaşı, 110/35/0,4 kV-luq şəbəkələri tam əhatə edən müasir SK-11 SCADA dispetçer idarəetmə sisteminin tətbiqi ilə şəbəkənin idarəetmə imkanları genişlənir. İlk dəfə olaraq SK-11 SCADA dispetçer idarəetmə sistemi ilə müasir rəqəmsal şəbəkə modelində aşağı gərginlik (0,4 kV) dövrələrini son istehlakçıyadək nəzarətdə saxlamaq mümkün olur.

Əvvəllər paylayıcı şəbəkələrdə dispetçer idarəetmə sistemi yalnız yüksəkgərginlikli xətləri əhatə edirdisə, hazırda bu imkanlar daha da genişləndirilib. Nəticədə elektrik enerjisinin alış nöqtəsindən abonent sayğacınadək idarə olunması, enerji balansı, keyfiyyəti, fasiləsiz çatdırılması, qəza hallarında avtomatik bərpa edilməsi, elektroenergetika sənədləşmə sahəsində ilk dəfə olaraq kağız daşıyıcılarından elektron jurnala keçidlə şəbəkələr haqda məlumatların qeydiyyatının aparılması və arxivləşdirilməsi yeni SK-11 sistemi üzərindən idarə edilərək tam nəzarətdə saxlanılır.

İlk dəfə Şuşada tətbiq edilən 35/0,4 kV-luq şəbəkələrin Rəqəmsal İdarəetmə Mərkəzi digər yarımstansiyalarla dairəvi əlaqələndirilmə imkanlarına malik olub Şuşa şəhərinin dayanıqlı və fasiləsiz elektrik enerjisi təchizatını təmin edir.

Elektroenergetika sahəsində ilk dəfə olaraq, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzində yarımstansiyanın qəza hallarında enerji təchizatının təmin edilməsi və yarımstansiyanın xüsusi sərfiyyat tələbatının kompensasiyası üçün alternativ və bərpaolunan enerji mənbəyindən istifadə tətbiq edilib, texniki-iqtisadi göstəricilər yüksəldilib, avadanlıqların fasiləsiz qidalandırılması təmin olunub.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Şuşa şəhərinin Rəqəmsal İdarəetmə Mərkəzindən Bakı şəhərində yerləşən 110/35/10 kV-luq yarımstansiyanın bilavasitə işə salınması, şəbəkə idarəetmə sistemində aparılmış innovativ - təşkilati yenidənqurma işləri nəticəsində mümkün olub.

## "Andıma sadiq oldum, bu gün Qarabağ azaddır"



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciət edib.

AZƏRTAC dövlət başçısının müraciətini təqdim edir.

### Prezident İlham Əliyevin müraciəti

- Bu gün Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.

2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən Prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.

Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerləyeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Birinci vitse-prezident Mehriban Əliyeva Şuşaya səfərindən paylaşımlar edib





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Şuşaya səfərindən fotolar paylaşıb.

AZƏRTAC paylaşımları təqdim edir: "Şuşaya gedərkən. Qarabağ necə də gözəldir" və "Şuşada yeni dost".

1923 **Azərbaycanın özü qədər əbədi** 2022

# Nazirlər Kabineti Aparatında Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb






Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 10-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Baş nazirin müavinləri və Nazirlər Kabineti Aparatının rəhbərliyi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Ümummilli Liderin Nazirlər Kabineti Aparatının binasındakı abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini yad ediblər.

# YAP-ın nümayəndələri və Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





Mayın 10-da müasir və müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri və ölkəmizdə səfərdə olan Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Daha sonra Şəhidlər xiyabanına gələn Yeni Azərbaycan Partiyasının üzvləri və Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edilib, məzarları üzərinə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Həmçinin "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

* * *

"Bu gün Azərbaycan xalqının tarixində əlamətdar bir gündür. Biz bu gün Ulu Öndərimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü qeyd edirik".

Bu fikirləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına həsr edib. Qədirbilən xalqımız da Ümummilli Liderimizin əziz xatirəsini daim uca tutur.

"Ulu Öndər Heydər Əliyev dövlətimiz və xalqımız üçün müstəsna xidmətlər göstərib, müasir müstəqil Azərbaycan dövlətini qurub. Bu gün vətəndaşlarımız Azərbaycanın dünyada söz və nüfuz sahibi olan ölkəyə çevrilməsi, ən əsası, torpaqlarımızın işğaldan azad olunması istiqamətində görülən işlərin təməlini qoyan bu dahi insana ehtiram əlaməti olaraq Fəxri xiyabana axın edir, onun əziz xatirəsini uca tutaraq hörmətlə yad edirlər", - deyə YAP sədrinin müavini vurğulayıb.

# Dövlət və hökumət rəsmiləri Ulu Öndərin xatirəsini anıblar



Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının ildönümüdür.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.





# *Hikmət Hacıyev:* "Ulu Öndərin irsi Azərbaycan xalqının qəlbində yaşayır və daim yaşayacaq"

"Ümummilli Liderimizin fəaliyyəti Azərbaycanın inkişafı, dövlətçiliyimizin gücləndirilməsi ilə bilavasitə bağlı idi. Məhz buna görədir ki, Ulu Öndərin irsi Azərbaycan xalqının qəlbində yaşayır və daim yaşayacaq".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev deyib ki, Ulu Öndər fenomeninə yalnız Azərbaycana rəhbərliyi kontekstindən deyil, son 200 il ərzində ölkəmizə qarşı işlənib-hazırlanan məkrli planlar çərçivəsindən baxmaq lazımdır. İstər XIX, istərsə də XX əsrdə ölkəmizə qarşı bu plan addım-addım həyata keçirilirdi. Yaşanan tarix xüsusilə XX əsrin əvvəlində bu planın daha ardıcıl və intensiv həyata keçirilməsinin şahididir. Xüsusilə qeyd etməliyik ki, məhz Qarabağ hərəkatı - yəni Ermənistan, erməni lobbisi və dairələri tərəfindən Qarabağın işğalı da 1980-ci illərin sonunda - Ulu Öndərin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra və ona qarşı məkrli planların həyata keçirilməsi ilə sinxron olaraq başladı.

Burada məkrli planı həyata keçirənlər ilk baxışda hər şeyi çox yaxşı şəkildə planlaşdırsalar da, onlar iki şeyi nəzərə ala bilməmişdilər. Bu, Ümummilli Liderin qətiyyəti və Azərbaycan xalqının əzmi idi ki, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinin təməlləri qoyuldu. Eyni zamanda, ölkəmizin daxili inkişafının, xarici siyasət strategiyasının asası qoyuldu. Bununla da Azərbaycan dövləti yeni inkişaf mərhələsinə qədəm qoydu.

"Dahi liderlər yalnız yaşadıqları dövrlə deyil, özlərindən sonra qoyub getdikləri siyasi irslə yadda qalırlar. Ulu Öndər tərəfindən təməli qoyulan siyasi irs bu gün də uğurla davam etdirilir. Onun tərəfindən edilən bir vəsiyyət var idi: Qarabağımızın və işğal altındakı torpaqlarımızın azad olunması. 2020-ci il noyabrın 8-də Azərbaycanın tacı olan Şuşa şəhəri işğaldan azad edildi. Prezident İlham Əliyev xalqımıza, dünya azərbaycanlılarına müraciətində ata vəsiyyətinin həyata keçirildiyini xüsusi qeyd etdi", - deyə Prezidentin köməkçisi bildirib.

# Ümummilli ziyarətgah

*Əvvəli 1-ci səh.*

Ulu Öndər mənim üçün sadəliyin zirvəsi, əbədiyaşarlıq nümunəsidir. Ona olan bu sevgi məndə hələ kiçik yaşlarımdan yaranıb. 1979-cu ilin yazında Ulu Öndər bizim rayona gəlmişdi. O zaman mənim 5 yaşım var idi. Kənd adamları Ulu Öndərin keçəcəyi marşrutu bildikləri üçün yolun kənarına çıxıb onu salamlayırdılar. Mən də həyətimizdən bir dəstə gül yığıb Ulu Öndərin gəlişini gözləyənlərin sırasında idim. Gözlənilmədən Ümummilli Liderin olduğu maşın mənim yaxınlığımda dayandı. Bir anlığa nə edəcəyimi bilmədim. O, maşından düşüb əli ilə məni yanına çağırıb qucağına aldı. Böyük bir doğmalıqla üzümdən öpüb mənə valideyinlərimin sözünə baxmağı, məktəbə gedəndə dərslərimi yaxşı oxuyub layiqli vətandaş olmağımı tövsiyə etdi.

25 ildir Rusiya Federasiyasının Arxangelsk vilayətində yaşayıram. Doğru deyiblər ki, dağ kənardan daha əzəmətli görünür. Azərbaycandan kənarda yaşadığım bu illər ərzində Ulu Öndərin əzəmətini, qüdrətini, bir siyasi lider kimi nüfuzunu görüb xalqımızın bu dahi şəxsiyyəti ilə həmişə iftixar duymuşam. Heydər Əliyev mənim üçün Azərbaycan dövlətinin qurucusu, onu dünyaya tanıdan böyük bir siyasi lider, millət atasıdır. Azərbaycanın bugünkü tərəqqisi, dünya dövlətləri arasında nüfuzuna və mövqeyinə görə xalq olaraq Ulu Öndərə borcluyuq.



Ziyarətçilərdən Gəncə şəhər sakini, Vətən müharibəsi veteranı, qazi Aqil Süleymanov söhbətə qoşulur: "Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb Murovdağ, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişəm. 30 oktyabr 2020-ci ildə Qırmızı Bazar uğrunda gedən döyüşlərdə ağır yaralanmışam. Səhhətimdə yaranan ciddi problemlərə baxmayaraq, hər il Ulu Öndərin məzarını ziyarət etmək üçün Gəncədən dostlarımla, ailə üzvlərimlə birlikdə Bakıya gəlirəm. Ulu Öndər mənim üçün Vətəni sevməyin, onun yolunda ömrünü fəda etməyi bacarmağın ən böyük nümunəsidir. İki ildir ki, ziyarətə ikiqat fərəh hissi ilə gəlirik. Çox şükürlər olsun ki, torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzi təmin edə bilmişik. Azad, müstəqil ölkənin vətəndaşı olmaq gözəl hissdir. Ölkəmizə müstəqillik qazandıran, onu əbədi edən Ulu Öndər Heydər Əliyevdir. Nə qədər ki, varam, müstəqilliyimizin simvolu olan Ulu Öndərin məzarını ziyarət etməyə gələcəyəm. Bunu bir vətəndaş, Heydər Əliyevin Vətən sevgisindən dərs almış bir müdavim kimi özümə borc bilirəm".

Ziyarətçilərdən Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Eldar Həsənov deyir ki, illərdir doğmaları, yaxınları ilə birlikdə Ulu Öndərin məzarını ziyarətə gəlir: "Bunu özümə mənəvi borc bilirəm. Ulu Öndərin məzarını ziyarət edəndə özümdə mənəvi rahatlıq tapıram. Hesab edirəm ki, nə qədər yaşasaq da, Heydər Əliyevə olan borcumuzu ödəyə bilmərik. Bugünümüz, firavan yaşayışımız, iqtisadi inkişafımız və hərbi qüdrətimiz üçün Ulu Öndərə borcluyuq. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Ümummilli Liderin əməyi olmasın. Aqrar sektorda çalışıram. Heydər Əliyevin kənd təsərrüfatının inkişafı, torpaqla məşğul olanların güzəranının yaxşılaşdırılması üçün nələr etdiyini bilirəm. Ulu Öndərin apardığı siyasət bu gün də uğurla davam etdirilir. Bu böyük şəxsiyyət aramızda olmasa da, ideyaları gerçəkləşir, əməlləri yaşayır. Hesab edirəm ki, millət olaraq bizi yaşadan, dövlət olaraq bizi gücləndirən, dünyaya tanıdan insana olan borcumuzu onu sevməklə, ürəklərdə yaşatmaqla qaytara bilərik".

Biologiya elmləri doktoru Səftər Süleymanov isə Ulu Öndərin elmə olan qayğısından söz açdı: "Mən bu gün çox böyük iftixar hissi ilə xalqımızın əvəzsiz lideri Ulu Öndərin məzarını ziyarətə gəlmişəm. Nə qədər ki, ayağım yer tutur, vətənimiz, dövlətimiz, xalqımız qarşısında əvəzsiz xidmətləri olan öndərimizin məzarını ziyarət etməyə gələcəyəm. Bu, mənim üçün mənəvi borcdur. Heydər Əliyev milli-mənəvi dəyərlərin qoruyucusu, onu gələçək nəsillərə çatdırılmasının təminatçısı, elmimizin inkişafında müstəsna xidmətləri olan, alimə, ziyalıya öz doğma münasibəti ilə seçilən və qayğı göstərən dahi şəxsiyyətdir. Azərbaycanın qazandığı bütün uğurlara görə biz Ulu Öndərə borcluyuq. Müasir Azərbaycan bu dahi şəxsiyyətin şah əsəridir".

Xəzər rayonu Yeni Qala qəsəbəsi sakini Gülər Paşazadə: "Gözümü açandan evimizdə, ailəmizdə, daha sonra təhsil aldığımız məktəblərdə dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin adını eşidib, xalqımız, dövlətimiz haqqında gördüyü böyük işlər barədə söhbətlərə qulaq asmışam. Ölkəmizdə gənclər siyasəti də onun adı ilə bağlıdır. Çox xoşbəxtəm ki, Ulu Öndərin qurduğu müstəqil Azərbaycanın vətəndaşıyam. Adı vətənimizlə qoşa çəkilən bu dahi şəxsiyyətin məzarını ziyarət etməyi bir gənc olaraq hər zaman özümə mənəvi borc hesab edirəm".

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# İsveçrə Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığa böyük önəm verir



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti mayın 10-da İsveçrə Konfederasiyasına rəsmi səfəri çərçivəsində ölkənin Federal Assambleyasının Kantonlar Şurasının sədri Tomas Hefti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Tomas Hefti Sahibə Qafarovanın parlamentin spikeri kimi bu ölkəyə ilk səfərinin ölkələrimiz və qanunverici orqanlarımız arasında münasibətlərin genişləndirilməsinə töhfə verəcəyini bildirib. O, parlamentlərin əməkdaşlığının dövlətlər arasında münasibətlərin inkişafında özünəməxsus rolunu qeyd edərək, ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb. Xüsusilə iqtisadi sahədə əlaqələrin daha da zənginləşdirilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, dost və tərəfdaş ölkələr olan Azərbaycan və İsveçrə arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini qeyd edib. Azərbaycan və İsveçrənin qanunverici orqanları arasında əlaqələrdən danışan spiker parlamentlərimiz arasında mövcud olan əməkdaşlıqdan məmnunluğunu bildirib. O deyib ki, müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi qanunverici orqanlar arasında əlaqələrin daha da genişlənməsinə xidmət edir. Parlament komitələrinin qanunvericilik fəaliyyəti sahəsində təcrübə mübadiləsi, komitələrin əməkdaşlığı münasibətlərin daha da dərinləşməsi üçün yeni imkanlar yarada bilər.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyulması, işğal dövründə Ermənistanın binaları, infrastrukturu, o cümlədən mədəni və dini abidələrimizi tamamilə məhv etməsi, hazırda işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq və bərpa işləri barədə məlumat verib. O qeyd edib ki, hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması üzrə səylər davam etdirilir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə keçirilmiş üçtərəfli görüşdə müəyyən razılaşmalar əldə olunub və Ermənistan Azərbaycanın sülh müqaviləsi üçün irəli sürdüyü 5 prinsipi qəbul edir. Azərbaycan regionda daimi sülh və sabitliyin təmin olunmasını istəyir və ümid edirik ki, tezliklə iki ölkə arasında sülh müqaviləsi imzalanacaqdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla İsveçrə arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir



Mayın 10-da Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına rəsmi səfəri çərçivəsində bu ölkə Parlamenti Milli Şurasının sədri İren Kalin ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətimizi səmimiyyətlə salamlayan İren Kalin ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırıb, ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. O deyib ki, bu əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur. İren Kalin xüsusilə iqtisadi sahədə qarşılıqlı investisiya qoyuluşu, biznes strukturları və müəssisələr arasında əlaqələrin əhəmiyyətini qeyd edib.

İki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın hazırkı yüksək səviyyəsini təqdir edən İren Kalin bu cür səfərlərin həm ölkələrimiz, həm də qanunverici orqanlarımız arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini qeyd edib. O, həmçinin parlament dostluq qruplarının fəaliyyətinin, parlamentarilər arasında dialoqun ikitərəfli əlaqələrin dərinləşməsində müsbət rolunu vurğulayıb.

İsveçrə parlamenti Milli Şurasının sədri ölkəsinin hər zaman regionda sülh və sabitliyin təmin edilməsində maraqlı olduğunu diqqətə çatdırıb. O, İsveçrənin hər zaman ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini qeyd edərək Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına dəstək verməyə hazır olduqlarını bildirib.

Rəsmi səfərə dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan parlamentinin spikeri kimi İsveçrə Konfederasiyasına ilk rəsmi səfərinin ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi işinə töhfə verəcəyinə inandığını bildirib. O, Azərbaycan və İsveçrənin dost və tərəfdaş ölkələr olduğunu diqqətə çatdıraraq deyib ki, bu gün ölkələrimiz arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir.

Milli Məclisin Sədri ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin müstəsna rolunu qeyd edərək xüsusilə dövlət başçılarının qarşılıqlı səfərlərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə mühüm töhfələrini vurğulayıb.

Görüşdə Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan və İsveçrə arasında siyasi münasibətlərin yüksək səviyyədə olması müxtəlif sahələrdə əməkdaşlığın inkişafına müsbət təsir göstərir. Qlobal pandemiyanın bütün dünya dövlətləri üçün yaratdığı maneələrə və fəsadlara baxmayaraq, hazırda ölkələrimiz iqtisadi, ticarət, humanitar və digər sahələrdə uğurla əməkdaşlıq edir. O, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühiti haqqında məlumat verərək daha çox İsveçrə şirkətlərini Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə görülən işlərdə iştiraka dəvət edib.

Milli Məclisin Sədri ölkəmizdə mövcud olan multikulturalizm və tolerantlıq mühiti haqqında məlumat verərək deyib ki, bu baxımdan Azərbaycan və İsveçrə xalqları arasında bir çox oxşarlıqlar var. Multikulturalizm xalqımızın həyat tərzidir. Ölkəmizdə əsrlər boyu müxtəlif dini və etnik qruplar sülh və dostluq şəraitində birgə yaşayıblar. Bakıda və Azərbaycanın regionlarında müxtəlif dinlərə aid abidələr, katolik, pravoslav kilsələr, sinaqoqlar və məscidlər yan-yana yerləşir. Multikulturalizmi dövlət siyasəti elan edən Azərbaycan bütün dünyada mədəniyyətlərarası dialoqu, sülh və əməkdaşlığı təşviq edir.

Azərbaycan və İsveçrənin qanunverici orqanları arasında əlaqələrdən danışan Sahibə Qafarova deyib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin vacib istiqamətlərindən biridir. Bu gün qanunverici orqanlarımız arasında səmərəli əməkdaşlıq mövcuddur. Parlament sədrlərinin qarşılıqlı səfərlərinin bu əməkdaşlığın inkişafında mühüm rolu var. Deputatlarımız beynəlxalq səviyyədə səmimi dialoq aparırlar. Hər iki ölkənin qanunverici orqanlarında qarşılıqlı dostluq qrupları fəaliyyət göstərir. Müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi parlamentlərimiz arasında körpü rolunu oynaya bilər.

Spiker Sahibə Qafarova Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında danışaraq bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan 20 faiz ərazisini azad edərək ərazi bütövlüyünü bərpa edib. Vaxtilə işğal altında olan ərazilərimizdə bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi, kəndlərimizi, məscidlərimizi dağıdıb.

Milli Məclisin Sədri bildirib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir. Bütün şəhər və kəndlərimiz yenidən qurulur. Qarabağda və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası yaradılır. Bu gün quruculuq işlərinə ən böyük maneə Ermənistan tərəfindən ərazilərimizin minalanmasıdır. Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində mülki şəxs və hərbi qulluqçular həlak olub və ya yaralanıb.

Spiker Sahibə Qafarova bildirib ki, münaqişənin həllindən sonra regionda yeni reallıqlar və imkanlar yaranıb. Daimi sülhə, təhlükəsizlik və əməkdaşlığa nail olmaq üçün bu imkanları düzgün dəyərləndirmək lazımdır. Zəngəzur dəhlizinin və bölgədəki digər kommunikasiya xətlərinin açılması regionun nəqliyyat potensialının əsaslı şəkildə artırılmasına imkan verəcək.

O xatırladıb ki, Azərbaycan Ermənistana daimi sülhün yaradılması üçün öz təklifini verib. Sülh müqaviləsinin imzalanması münasibətlərin normallaşmasına şərait yaradacaq. Milli Məclisin Sədri qeyd edib ki, cari il aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə keçirilən görüşünün nəticələri göstərir ki, Ermənistan Azərbaycanın təklifini qəbul edir. Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında telefon danışıqları olub. Azərbaycan sülh müqaviləsinin imzalanması üzrə nümayəndə heyətləri çərçivəsində danışıqlara başlamağa hazırdır. Ermənistan münasibətlərin normalaşması üçün öhdəliklərini yerinə yetirməlidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüş başa çatdıqdan sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti İsveçrə parlamentinin binası ilə tanış olub.

Sonra Milli Şuranın plenar iclas zalının eyvanından Azərbaycan parlament nümayəndə heyətinin rəsmi salamlanması mərasimi olub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin nümayəndə heyəti ölkəmizin İsveçrədəki səfirliyində olub

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Azərbaycanın İsveçrə Konfederasiyasındakı səfirliyində olub.





Əvvəlcə Milli Məclisin Sədri və nümayəndə heyətinin üzvləri səfirliyin binasında Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edib, büstün önünə gül dəstələri düzüblər.

Qeyd olunub ki, mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın xilaskarı, Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü tamam oldu. Ulu Öndərin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətləri dövlətçilik tariximizin ən parlaq səhifələrini təşkil edir. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib. Ölkəmizi tənəzzül və parçalanmadan xilas edərək müstəqilliyimizin dönməzliyini təmin edib, onun uğurlu inkişafının əsaslarını yaradıb.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin irsi, ölməz ideyaları bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan möhtəşəm nailiyyətlərə imza ataraq dünya miqyasında böyük nüfuz sahibi olan dövlət kimi tanınır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə ilə Azərbaycan öz qüdrətini bir daha nümayiş etdirib.

Sonra Milli Məclisin Sədri səfirliyin fəaliyyəti ilə tanış olub, diplomatik korpusun əməkdaşları ilə söhbət edib.

***"Azərbaycan"***

# Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları gücləndirilir

Mayın 10-da Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.

İclası açan Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə üçüncü oxunuşda olan iki qanun layihəsi - "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib.

Gündəliyin müzakirəsinə keçməzdən əvvəl komitə sədri Bəxtiyar Əliyev Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünün xalqımız tərəfindən dərin hörmət və ehtiramla anılmasından söz açıb. Komitə sədri bütün həyatını Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünün bərpasına, xalqının rifahı və xoşbəxtliyinə həsr edən Ulu Öndərin işıqlı xatirəsinin azad Şuşada və digər azad olunmuş torpaqlarımızda da qeyd olunmasının qürurunu və sevincini yaşadığımızı vurğulayıb. Bu gün Ulu Öndərin də, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin də ruhunun şad olduğunu bildirən komitə sədri Prezident İlham Əliyevin Azərbaycanı Heydər Əliyevin müqəddəs amalları ətrafında sıx birləşdirərək yeni zirvələrə doğru daşıdığını vurğulayıb.

Sonra gündəlikdəki məsələləri təqdim edən Bəxtiyar Əliyev qanun layihələri və onların 1-ci və 2-ci oxunuşları barədə məlumat verib. Komitə sədri deputatların qanun layihələrini dəstəklədiklərini qeyd edərək, sənədlərlə bağlı aparılan müzakirələrdə qaldırılan məsələlərə aydınlıq gətirib. Bəxtiyar Əliyev sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb edilməsi ilə bağlı görülən tədbirlərdən, yerinə yetirilən dövlət proqramlarından söz açıb, Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun təmini ilə bağlı həyata keçirilən layihələri diqqətə çatdırıb.

Komitə sədri bildirib ki, bütövlükdə təklif edilən dəyişikliklərin əsas məqsədi, sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühitin dövlət təminatlarını yaratmaqdan ibarətdir.

Qanun layihələrinin müzakirəsində Elm və təhsil komitəsinin üzvləri İsa Həbibbəyli, Ceyhun Məmmədov, Etibar Əliyev, Tamam Cəfərova çıxış ediblər. Müzakirələrin sonunda hər iki qanun layihəsi üçüncü oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# "Sərhəd mühafizə orqanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sərhəd mühafizə orqanları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 209; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199; 2007, № 6, maddə 560, № 11, maddə 1078; 2013, № 2, maddə 94; 2016, № 1, maddə 10; 2017, № 4, maddə 519, № 12 (I kitab), maddə 2201; 2018, № 7 (I kitab), maddə 1402; 2020, № 5, maddə 508) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci cümləsinə "çevik hərəkət qüvvələrindən," sözlərindən sonra "xüsusi hava əməliyyatları qüvvələrindən," sözləri əlavə edilsin.

2. 24-cü maddənin birinci hissəsində "aviasiya hissəsinin" sözləri "xüsusi hava əməliyyatları qüvvələrinin və hərbi aviasiya hissələrinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

# 2022 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2022-ci il mayın 10-dan iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin beynəlxalq hava limanlarında "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2022-ci il*

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abdullayev Kyazım Ənvər oğlu
Balayev Məmmədəli Bəşir oğlu
İmanova Gülbacı Əliəkbər qızı
Qarayev Fərəc Qara oğlu
Novruzova Nubar Qulu qızı
Sadıqov Faiq Əbülfəz oğlu
Verdiyev Fikrət Süleyman oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2022-ci il*

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Abutalıbov Şirzad Əsəd oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağakişiyev Rauf Fikrət oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Arsentyeva Olqa Anatolyevna
Atakişiyeva Mətanət Ağazair qızı
Babayev Allahverən Hacı oğlu
Babayev Əbülfət Məmməd oğlu
Babayeva İnarə Əhməd qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırov İzaməddin Zeynal oğlu
Bağırova Sənubər Yusufovna
Baliyeva Natalya Gennadyevna
Barateliya Naala Raulyevna
Bayramov Salman Bayram oğlu
Bayramov Təyyar Allahverdi oğlu
Bədəlova Solmaz Əligözəl qızı
Bəşirov Xanlar Əyyub oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dadaşov Əmrah Balaxan oğlu
Dubovitskaya Mariya Aleksandrovna
Eyvazov Yasəf Alxas oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əflaki Ədilə Osman qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov İlyas Əhməd oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əlili Hüseyn Azad oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Əliyar Əlişan oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyev Vaqif Səfər oğlu
Əliyeva İlahə Yavər qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əlizadə Şəhla Seidşah qızı
Əmrahov Rövşən Əbdürəhman oğlu
Əsgərov Əli Rəhim oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Fətullayeva Aygün Bəhruz qızı
Hacıyev Əli Əliyusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Hacıyeva Siddiqə Zakir qızı
Heybətov Anar Mithət oğlu
Həbibov Nicat Əli oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənov Vidadi İsmail oğlu
Həsənova Natavan Mikayıl qızı
Həşimov Orxan İlqar oğlu
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova İlahə Həsən qızı
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimli Qabil Mahmud oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmranova İnna Aleksandrovna
İsmayılov Qurban İbrahim oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Nərgiz Faiq qızı
Qasımov Məmmədsafa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Sevinc Vahid qızı
Qəhrəmanov Abbas Əhməd oğlu
Qocayev Rəhim Xəlil oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanova Pərvanə Yaqub qızı
Makarova Nina Aleksandrovna
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Günel Əzizağa qızı
Məsimov Qurban Abdulla oğlu
Mirişli Nazim Ramiz oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəyev Sucəddin Qiyas oğlu
Mirzəzadə Nicat Qərib oğlu
Musabəyli Nuridə Musa qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayev Vüsal Sədaqət oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nağıyev Qasım Gəncalı oğlu
Nəzərov İlham İslam oğlu
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Ömərov Gümrah Rza oğlu
Poladov Əkram Nicad oğlu
Ramazanova Nigar Azər qızı
Rəhimov Səxavət Şərif oğlu
Rəhimova Rəna Hacıyevna
Rəhmanov Rəhman Tofiq oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Mahir Eldar oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Elvira Nuca qızı
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salamova Gülcahan Əhməd qızı
Salmanov Nicat Fərhad oğlu
Seyidov Aqib İbrahim oğlu
Seyidova Ceyla Uran qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Samir Səməd oğlu
Səmədov Şükür Hacıbala oğlu
Süleymanova Elmira Süleyman qızı
Şirinov Asif Əhməd oğlu
Şirinov Aslan Adil oğlu
Yahyayev Taleh Saleh oğlu
Zeynalov Azər Zeynalabdın oğlu
Zeynalov Yaqub Oktay oğlu
Zeynalova Zülfiyyə Əsgər qızı
Zülfüqarova Əminə Cahangir qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2634 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 471) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2022-ci il*

# Yeni Azərbaycan Partiyası və Makedoniya Türk Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Mayın 10-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Yeni Azərbaycan Partiyası və Makedoniya Türk Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalanması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, Əməkdaşlıq Memorandumunu Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas imzalayıblar.

İmzalanma mərasimindən sonra mətbuat konfransı keçirilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qonaqları bir daha salamlayıb və partiyalar arasında imzalanmış sənədin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsas istiqamətlərindən biri beynəlxalq əlaqələrin inkişaf etdirilməsidir. Bu baxımdan, Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyətinin ölkəmizə səfəri böyük önəm kəsb edir. YAP Sədrinin müavini qeyd edib ki, partiyalar arasında Əməkdaşlıq Memorandumunun imzalanması müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə təsadüf edir. O deyib: "Bu gün biz birlikdə Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdik, Azərbaycan xalqının, bütövlükdə türk dünyasının böyük oğlu, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramımızı bildirdik". Vurğulanıb ki, Əməkdaşlıq Memorandumu qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir. Əminliklə söyləmək olar ki, bu sənədin imzalanması ilə nəinki partiyalarımız, ümumilikdə iki dövlət arasında münasibətlərin keyfiyyətcə yeni müstəviyə çıxması üçün imkanlar yaranır. "Yeni Azərbaycan Partiyası olaraq Makedoniya Türk Demokratik Partiyasının Şimali Makedoniyanın ictimai-siyasi həyatında, siyasi proseslərdə fəal iştirakını yüksək qiymətləndiririk. Bu fəallığın nəticəsidir ki, bu partiyanın nümayəndələri həmin ölkənin hökumətində və parlamentində təmsil olunurlar", - deyən Tahir Budaqov gələcəkdə partiyalar arasında müxtəlif məsələlərlə bağlı təcrübə mübadiləsinin aparılması, qarşılıqlı səfərlərin təşkili, o cümlədən hər iki partiyanın gəncləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

"Yaxın vaxtlarda YAP Gənclər Birliyinin nümayəndə heyəti Türkiyəyə səfər edərək Gənclər Festivalında iştirak edəcək. Şimali Makedoniya Türk Demokratik Partiyasının gəncləri də həmin tədbirdə iştirak edəcək. Bu da iki partiyanın gəncləri arasında əlaqələrin qurulması üçün gözəl bir platformadır. Mayın 11-də Milli Məclisdə Azərbaycan-Şimali Makedoniya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri arasında görüş də keçiriləcək. Şimali Makedoniya ilə əlaqələrin inkişafı YAP-ın Avropada əməkdaşlıq əlaqələrinin genişlənməsinə də töhfə verə bilər. Biz gələcəkdə Orta Asiya türk dövlətlərinin siyasi partiyaları ilə əlaqələrin qurulması üçün birgə addımlar da atmağı nəzərdə tuturuq", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Öz növbəsində Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edərək bildirib: "Bu gün səfərimiz türk dünyasının böyük dövlət adamı, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının ildönümünə təsadüf edir. Biz Heydər Əliyevin əziz xatirəsinə hörmət və ehtiramımızı bildiririk". O, Azərbaycanın sürətlə inkişaf etdiyinin şahidi olduğunu deyərək bildirib ki, dost və qardaş bir xalqın qazandığı nailiyyətlər bizi çox sevindirir. Beycan İlyas yeni mərhələdə güclənən Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin daha da güclənməsində maraqlı olduqlarını vurğulayıb.

Qonaq Yeni Azərbaycan Partiyası ilə əlaqələrin genişlənməsinə böyük önəm verdiyini diqqətə çatdırıb. Onun fikrincə, Əməkdaşlıq Memorandumunun imzalanması qarşılıqlı əlaqələrin inkişafına öz töhfəsini verəcək: "Azərbaycan bizim üçün qardaş bir ölkədir. Azərbaycanı həm Balkan regionunda, həm də Avropada təmsil etmək üçün YAP-la əməkdaşlıq etmək təklifimiz müsbət qarşılandı".

Beycan İlyas İkinci Qarabağ müharibəsinin Azərbaycanın gücünü bütün dünyaya göstərdiyini vurğulayaraq deyib: "Bu Zəfər münasibətilə Azərbaycan xalqını təbrik edirik. Əgər İkinci Qarabağ müharibəsi dövründə Şimali Makedoniya parlamentinə Ermənistanın lehinə bir qərar layihəsi gəlsəydi, biz buna qarşı çıxardıq. Allahdan şəhidlərə rəhmət, qazilərə şəfalar diləyirik. Qardaş Azərbaycana da dünyadakı bu yüksəlişini davam etdirməyi arzulayırıq. Biz bir NATO, Avropa ölkəsi olaraq bundan sonra da Azərbaycanı dəstəkləyəcəyik. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə də partiyalarımız arasında Əməkdaşlıq Memorandumunun imzalanmasını dəstəklədiyi üçün təşəkkür edirik". Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri onu da qeyd edib ki, Azərbaycan və Şimali Makedoniya türkləri qardaşdırlar. Bu qardaşlığın daha da güclənməsi üçün əlimizdən gələni etməliyik.

Sonra jurnalistlərin suallarıcavablandırılıb.

# *Tahir BUDAQOV:* "YAP ilə Makedoniya Türk Demokratik Partiyası arasında əlaqələrin inkişafı üçün yaxşı imkanlar var"

Mayın 10-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas və partiyanın sədr müavini, əmək və sosial siyasət nazirinin müavini Ənvər Hüseynlə görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafı üçün potensialın olduğunu bildirib. YAP Sədrinin müavini diqqətə çatdırıb ki, xüsusilə iqtisadi-ticari, mədəni və turizm sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanlar mövcuddur.

Görüşdə, eyni zamanda, Azərbaycanın inkişafında yeni mərhələnin başlandığı, 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin öz ərazi bütövlüyünü təmin etdiyi vurğulanıb. Bildirilib ki, qarşıda duran əsas vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin həyata keçirilməsidir. Bu prosesdə dost ölkələrin şirkətləri də iştirak edirlər.

Tahir Budaqov deyib ki, Yeni Azərbaycan Partiyası ilə Makedoniya Türk Demokratik Partiyası arasında əlaqələrin inkişafı üçün yaxşı imkanlar var və bu ölkədəki türk toplumunun ictimai-siyasi fəallığı da məmnunluq doğurur. Bu səfər qarşılıqlı əlaqələrin genişlənməsinə öz töhfəsini verəcək.

Görüşdə iştirak edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov da Azərbaycan-Şimali Makedoniya əlaqələri, bu münasibətlərin inkişafında partiyaların rolu haqqında fikirlərini bildirib.

Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas Azərbaycana səfər etməkdən məmnunluğunu bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini və ölkənin uğurlarına sevindiyini söyləyib. Bildirilib ki, Azərbaycanla Makedoniya dost ölkələrdir. Beycan İlyas Makedoniya Türk Demokratik Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin gücləndirilməsində maraqlı olduğunu bildirib. Bu səfərin də məhz iki partiya arasında mövcud əlaqələrin və dostluq münasibətlərinin daha da gücləndirilməsi məqsədi daşıdığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim edilib.

# Prezident Administrasiyasının şöbə müdiri Şimali Makedoniyanın Türk Demokratik Partiyasının rəhbərliyi ilə görüşüb

Mayın 10-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Şimali Makedoniyanın Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Parlamentinin deputatı, Şimali Makedoniya - Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas və həmin partiyanın xarici əlaqələr üzrə sədr müavini, Şimali Makedoniyanın əmək və sosial siyasət nazirinin müavini Ənvər Hüseyn ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi Qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda irimiqyaslı və sürətli quruculuq işlərinin həyata keçirilməsi ilə regionda tamamilə yeni inkişaf mərhələsinin başlandığını qonaqların diqqətinə çatdırıb. O, dövlət başçısının ədalətli beynəlxalq sülh və təhlükəsizlik naminə fəaliyyətini, habelə quruculuq əzmini vurğulayaraq beynəlxalq ictimaiyyətin bu prosesdə yaxından iştirakının və dəstəyinin vacibliyini qeyd edib. Şöbə müdiri bildirib ki, regionda təcavüzkarlığın yenidən baş qaldırmaması və təqsirkarların daim beynəlxalq qınaq hədəfində olması üçün dünya ictimaiyyətinin inamlı səy göstərməsi zəruridir.

Ədalət Vəliyev Prezident İlham Əliyevin apardığı sistemli və çoxşaxəli inzibati-siyasi islahatların nəticələrindən danışaraq ölkədə iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu deyib. Eyni zamanda, dövlət başçısının sosial siyasətinin əsas məqamları, xüsusilə koronavirus pandemiyası ilə mübarizə sahəsində Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə həyata keçirilən kompleks məqsədyönlü tədbirlər barədə məlumat verilib. Görüşdə həmçinin regionda yaranmış yeni reallıq fonunda ölkələrarası siyasi müstəvidə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin dərinləşməsinin, müxtəlif siyasi platformalar vasitəsilə obyektiv məlumatların mübadiləsinin və geniş beynəlxalq auditoriyaya ötürülməsinin mühüm əhəmiyyət kəsb etdiyi, Azərbaycan Respublikasının xalqların milli maraqlarına cavab verən və dövlətlərin inkişafına, ədalətli sülhə xidmət edən bütün təşəbbüsləri dəstəklədiyi bildirilib.

Qonaqlar Şimali Makedoniyanın Türk Demokratik Partiyasının Yeni Azərbaycan Partiyası ilə qarşılıqlı sıx əməkdaşlıq əlaqələri qurmaq niyyətində olduğunu qeyd edərək, bu cür əlaqələrin reallaşdırılmasının faydalı olacağına, iki ölkə və xalq arasında dostluq münasibətlərini daha yüksək pilləyə yüksəldəcəyinə əminlik ifadə ediblər.

Daha sonra əsas əməkdaşlıq istiqamətləri üzrə icra oluna biləcək layihələr ətrafında fikir mübadiləsi aparılıb, imzalanacaq partiyalararası əməkdaşlıq memorandumunun əsas aspektləri müzakirə olunub. Etibarlı əməkdaşlıq və tərəfdaşlıq, qarşılıqlı hörmət və bərabərlik prinsiplərinə əsaslanan memorandum parlamentlərarası peşəkar fəaliyyətin inkişafı, partiyalararası təmasların fəallaşdırılması, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək, habelə gənclər siyasəti, elm və digər sahələrdə konstruktiv əməkdaşlığı nəzərdə tutur.

Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

# "Qələmi silaha dəyişən müəllim"





Ağstafada Vətən müharibəsinin ilk günlərindən könüllü cəbhəyə yollanan şəhid məktəb direktoru Elvin Elsevər oğlu İmaməliyevin ömür yolundan bəhs edən "Qələmi silaha dəyişən müəllim" adlı kitabın təqdimat mərasimi keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdən əvvəl Elvin İmaməliyevin vaxtilə direktoru olduğu Ağstafa şəhər 1 saylı tam orta məktəbdə onun xatirəsinə inşa edilmiş abidə-kompleksi ziyarət olunub, önünə əklil və gül dəstələri düzülüb.

Ağstafalı şəhidlərin ailə üzvlərinin, rayon rəhbərliyinin, kitabın müəllifi Mətanət İmamquluyevanın, eləcə qazilərin və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyü urğunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kitabın müəllifi Mətanət İmamquliyeva çıxış edərək diqqətə çatdırıb ki, o, bu kitabda 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmiş Elvin müəllimin simasında Babək, Koroğlu hünərli qəhrəman oğullarımızın ümumiləşdirilmiş obrazını təqdim edib. Bu kitab şəhid qəhrəmanımızın xatirəsini əbədiləşdirən söz abidəsidir.

Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, şəhidin atası Elsevər İmaməliyev və başqaları çıxış edərək Elvin İmaməliyevin keçdiyi şərəfli ömür və döyüş yolundan, eləcə də ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına göstərilən yüksək dövlət qayğısından söz açıblar.

Mərasim Elvin İmaməliyevə həsr olunmuş filmin nümayişi ilə başa çatıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Xarıbülbül" Şuşada yenidən dünyanı başına toplayır

## Mədəniyyət paytaxtımız mühüm beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib




Şanlı Vətən müharibəsində qazandığımız qürurlu Zəfər Qarabağda tarixi ənələrimizin və mədəni tədbirlərimizin də bərpasına yol açıb. İndi azadlığına qovuşdurulan torpaqlarımız bərpa-quruculuq meydanına, Şuşa isə mədəniyyətimizin mərkəzinə çevrilib. Şuşada gerçəkləşən mədəniyyət tədbirlərinin ilk carçısı isə ötən ilin 12-13 may tarixlərində Cıdır düzündə gerçəkləşən "Xarıbülbül" Musiqi Festivalı olub.

Bu günlərdə isə "Xarıbülbül" dünyanı Şuşada toplayacaq. Budəfəki festivalda müxtəlif ölkələrin folklor kollektivləri də çıxış edəcəklər və bir daha Azərbaycanın mədəniyyət paytaxtından bütün dünyaya barışıq mesajı verəcəklər.

### Zirvədə yazılan tarix

Qarabağımızın mirvarisi Şuşa sürətlə dirçəlir, mədəni, mənəvi ruhunu özünə qaytarır. Gün-gündən çiçəklənən tarixi şəhərimiz təkcə Azərbaycanın deyil, Qafqazın mərkəzinə çevrilir. Azadlığına qovuşandan qısa zaman sonra, Azərbaycanın mədəniyyət paytaxtı elan olunan Şuşa mühüm tədbirlərin ev sahibi olmaqla yanaşı, beynəlxalq toplantıların keçirildiyi məkan kimi də dünyada məşhurlaşıb.

Təsadüfi deyil ki, Prezidentin sərəncamına əsasən Şuşanın mədəniyyət paytaxtımız elan edilməsi şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği başlıca məqsədlər kimi müəyyən edilib.

Elə bu müstəsna məqsədlərə əsasən də Şuşada ənənəvi mədəni həyat ötən ilin mayın 12-si və 13-də qala şəhərimizdə keçirilən "Xarıbülbül" festivalı ilə öz axarına düşdü. Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxış etdiyi, xalq və klassik musiqi nümunələrindən ibarət proqramın təqdim olunduğu festivalda xalqımız bir daha bütün dünyaya öz birgəliyini nümayiş etdirdi.

Ötən ilin 15 iyununda Şuşada Azərbaycan Türkiyə əlaqələri tarixinə daha bir əlamətdar gün yazıldı. Prezident İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanı Qarabağda qarşıladı və hər bir azərbaycanlının mənəvi paytaxtı hesab olunan Şuşa şəhərində Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında möhtəşəm Şuşa Bəyannaməsi imzalandı.

Azərbaycanın qurtuluş günündə, tarixi Qars müqaviləsindən yüz il sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair məhz Şuşada imzalanan möhtəşəm bəyannamə ilə əzəldən var olan münasibətlərimiz daha yüksək zirvəyə ucaldı.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və mənfur erməni qəsbkarlarının işğalçılıq siyasəti nəticəsində yarımçıq qalan mədəni tədbirlərimizdən olan "Vaqif Poeziya Günləri" də 2021-ci ilin 30 avqustunda yenidən Şuşada keçirildi. İllərdən sonra Qarabağımızda baş tutan ənənəvi şeir bayramı sənətsevərlərin, ümumilikdə Azərbaycan xalqının böyük sevincinə səbəb oldu.

18 sentyabr Milli Musiqi Günümüzü də ötən ilin həmin günündə illərlə arzuladığımız kimi dahi Üzeyir bəyin doğma şəhəri Şuşada, elə dahi bəstəkarın heykəlinin yerləşdiyi parkda təntənəli şəkildə qeyd etdik. Şuşadan səslənən möhtəşəm musiqilərimiz bütün Qarabağa, Azərbaycana, dünyaya səs saldı.

### "Şuşa ili"nin töhfələri

2022-ci ili isə Prezident İlham Əliyev başdan-başa Şuşa ili elan edib. Elə bu müstəsna statusa uyğun olaraq ötənilki kimi, bu il də Şuşa ən mötəbər tədbirlərə evsahibliyi edib və daha neçə-neçə təntənəli tədbirlərin keçirilməsinə hazırlaşır.

Mədəniyyətimizin paytaxtında gerçəkləşən belə mühüm tədbirlərdən biri isə martın 18-də şəhərdə Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı oldu.

Çoxşaxəli əməkdaşlığı özündə ehtiva edən Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş bu toplantının məhz Şuşada keçirilməsi xüsusi rəmzi məna daşıyırdı.

Azərbaycan parlamentinin komitə iclaslarının da Şuşada keçirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərin möhtəşəm nəticələrindəndir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacib göstəricilərindən biri kimi mühüm siyasi əhəmiyyət kəsb edən bu tədbir, həm də illərdir torpaqlarımıza göz dikən işğalçılara böyük zərbə oldu. Çünki erməni mənfurlarının saxta parlament yaratmaq və Şuşada parlament binası tikmək kimi quduz iştahları Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə sayəsində məhv oldu.

Ötən ay dünya azərbaycanlıları da mədəniyyət paytaxtımıza yığışdılar və təntənə ilə Zəfər qurultaylarını keçirdilər. Sayca 5-ci olan bu fəxarətli qurultayda azad Qarabağda, azad Şuşada toplaşan həmvətənlərimiz öz sarsılmaz və əbədi həmrəyliklərini bir daha bütün dünyaya, dosta-düşmənə bəyan etdilər.

### Şuşanın yeni statusu

Azərbaycanın mədəniyyət paytaxtı gün keçdikcə yeni statuslara da sahib olur. Bu gün Şuşa həm də dünyada Qafqazın diplomatiya mərkəzi kimi tanınır. "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forumun da məhz Qarabağımızın incisi Şuşada təşkil olunması buna bariz nümunədir və onun göstəricisidir ki, Şuşa regional əhəmiyyətə malik şəhərdir.

Bu günlərdə isə Azərbaycanın dilbər guşəsi Şuşada müxtəlif ölkələrin kulinarları bir araya gəldilər. Mədəniyyət paytaxtımızda keçirilən Şuşa Birinci Beynəlxalq Kulinariya Festivalında Azərbaycan xalqının qonaqpərvərliyi, bu şəhərin qədimliyi və gözəlliyi bir daha nümayiş etdirildi. Festival zamanı Şuşada təkcə dünya xalqlarının təamları deyil, həmçinin müxtəlif ölkələrin maddi-mənəvi dəyərləri təqdim edildi. Kulinariya festivalının son günündə isə Azərbaycanın milli musiqiləri səsləndirildi, qonaqlara yerli tamaşa və filmlərdən səhnəciklər təqdim edildi. Bir sözlə, dünya Azərbaycan mədəniyyəti ilə bir daha Şuşada tanış oldu.

### İnkişaf, qələbə, sülh rəmzi

Qarşıdakı zamanda da qədim yurdumuzda keçiriləcək yerli və beynəlxalq əhəmiyyətli xeyli tədbirlər gözlənilir.

Bu il, 1752-ci ildə Pənahəli xan tərəfindən təməli qoyulan Şuşa şəhərinin 270 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək.

Şuşa təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının qürur, zəfər ünvanıdır. Buna görədir ki, Zəfər simvolumuz Şuşa 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olmaq kimi müstəsna missiyanı da qürurla yerinə yetirəcək.

Şuşada həyata keçirilən və adlarını sadaladığımız tədbirlər Qarabağımızın baş tacının adına, şöhrətinə yaraşır bir şəkildə hərtərəfli inkişaf etdiyinin, ənənəvi tarixi günlərinə qovuşduğunun bariz göstəricisidir. Eyni zamanda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, həm də Qafqazın inkişaf, qələbə, sülh rəmzi olduğunun təntənəli sübutudir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" Ulu Öndərin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirib





"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti xalqımızın Ulu Öndəri, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü və Heydər Əliyev Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyi münasibətilə tədbir keçirib.

QSC kollektivinin üzvlərinin iştirakı ilə Heydər Əliyev Mərkəzində təşkil edilmiş interaktiv tədbirdə Azərbaycan tarixində müstəsna xidmətləri ilə əbədilik qazanmış Ümummilli Liderin zəngin həyat yolu, çoxşaxəli siyasi irsindən bəhs edilib. Kollektiv üzvləri mərkəzdə dahi liderin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən məlumatlar, faktlar, foto və video materiallar və digər unikal eksponatlarla tanış olublar. Mərkəzin əməkdaşları Ulu Öndərin müstəqil Azərbaycanın quruculuğunda göstərdiyi misilsiz fədakarlıq, eləcə də sovet dönəmində onun rəhbərliyi ilə həyata keçirilən siyasi fəaliyyətdən danışıblar. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik missiyasını öz üzərinə götürən Heydər Əliyevin xilaskarlıq missiyasını şərəflə yerinə yetirməklə nəinki xalqımızın ən parlaq siması kimi, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri qismində tarixdə silinməz iz qoyduğunu qeyd ediblər.

Sonra Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində ölkəmizlə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev Mərkəzinin 10 illik fəaliyyətindən bəhs olunub. Azərbaycanın müasir reallıqlarını əks etdirən, qeyri-adi, mürəkkəb quruluşlu binası ilə paytaxtımızın çağdaş simvollarından birinə çevrilən mərkəzin fəaliyyətə başlamasının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevrildiyi, bu mədəniyyət ocağının yaradılmasının Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin miqyasını və əhəmiyyətini göstərdiyi vurğulanıb. Tədbirdə "AzerGold" QSC tərəfindən 2018-ci ildə istehsal edilən, yerli qızıl və gümüşdən hazırlanmış birinci sikkə kolleksiyasının üzərində Azərbaycanın dinamik inkişafını, keçmişdən gələcəyə bağlılığını təcəssüm edən Heydər Əliyev Mərkəzinin dizaynının əks olunduğu xatırlanıb.

Tədbir mərkəzin sərgi salonlarının ziyarəti ilə yekunlaşıb.

# "AzərEnerji" Heydər Əliyevin anadan olmasının 99 illiyini qeyd edib





"AzərEnerji" ASC-nin kollektivi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirib.

ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, səhmdar cəmiyyətin rəhbərliyi və kollektivi Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər, önünə gül dəstələri qoyublar.

Daha sonra Ulu Öndərin anadan olmasının 99 illiyinə həsr edilən ağacəkmə aksiyası təşkil olunub. Ümummilli Liderin ətraf mühitin qorunması, yaşıllıqların salınması tövsiyəsinə uyğun olaraq keçirilən ağacəkmə aksiyasından sonra "Heydər Əliyev müasir Azərbaycan elektroenergetikasının qurucusudur" mövzusunda tədbir keçirilib. Çıxışlar dinlənildikdən sonra Ulu Öndərin elektroenergetika siyasətinə həsr edilmiş videoçarx nümayiş olunub.

# "Azpetrol" şirkəti Ulu Öndər Heydər Əliyevi böyük ehtiramla anır



"Azpetrol" şirkətinin Baş direktoru Ceyhun Məmmədov və şirkətin kollektivi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Fəxri xiyabandakı məzarı önünə əklil qoymuş və dahi şəxsiyyətin ruhunu bir dəqiqəlik sükutla yad etmişlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Milli Məclisin İşlər müdiri Firudin Hacıyev və İşlər İdarəsinin kollektivi iş yoldaşları Maliyyə şöbəsinin müdir müavini Tural Hacıyevə atası

**HÜSEYN HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5976
Sifariş 1282
Qiyməti 40 qəpik